# ATAKİŞİYEV ASLAN QABİL OĞLU



Atakişiyev Aslan 1953-cü il avqustun 16-da Qubadlı rayonunun Muradxanlı kəndində anadan olmuşdur. 1960-cı ildə burada birinci sinfə getmiş, 1970-ci ildə onuncu sinfi bitirmişdir. 1972-ci ildə hərbi xidmətə çağırılmışdır. 1974-cü ildə əsgəri xidmətini yerinə yetirib doğma kəndə qayıtmışdır. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuşdur. 1981-ci ildə təhsilini başa vuraraq Muradxanlı kənd orta məktəbində müəllimliyə başlamışdır. Erməni işğalçılarının törətdikləri cinayətləri gördükdən sonra 1992-ci ildə o, Milli Ordu sıralarına yazılaraq leytenant rütbəsi ilə komandir müavini təyin olunmuşdur. Laçın torpaqlarının azad olunması uğrunda gedən döyüşlərin təşkilatçılarından olan Aslan rayonun Səfiyan, Mazutlu, Türklər, Yuxarı və Aşağı Fərəcan, Suarası və başqa kəndlərində gedən qanlı döyüşlərdə igidlik nümunəsi göstərərək, düşmənin xeyli hərbi texnikasını və canlı qüvvəsini məhv etmişdi. 1992-ci il avqustun 7-də əsgərlərimiz Laçın dəhlizi ərazisində və Susuzdağ yüksəkliyində gedən döyüşlərdə düşmənin mövqelərini atəşə tutaraq onları irəliləməyə qoymurdular. Bu döyüşdə son nəfəsinədək vuruşan Aslan düşmənə əsir düşməmək üçün axırıncı gülləsini öz ürəyinə sıxır. Bakının Şəhidlər xiyabanında dəfn edilmişdir. Evli idi. Üç övladı yadigar qalıb. Azərbayan Respublikası prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə Atakişiyev Aslan Qabil oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Qubadlı rayon Muradxanlı kənd orta məktəb Milli Qəhrəmanın adını daşıyır (Hazırda həmin məktəb Binəqədi rayonunda fəaliyyət göstərir).